# VALİDEYNLƏR ARASINDA PEDAQOJİ BİLİKLƏRİN YAYILMASININ SƏMƏRƏLİ YOLLARI

**Şəhla Ələkbərova,**
*Elçin Qaranzadə adına 270 nömrəli tam orta məktəbin*
*Azərbaycan dili və ədəbiyyat müəllimi*
E-mail: Shehla270@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* A. Bəkirova,
*ped.ü.fəls.dok.* K. Mahmudova

***Açar sözlər:*** *pedaqoji təbliğat, mühazirə, direktiv sənəd, yığıncaq*
***Ключевые слова:*** *педагогическая пропаганда, лекция, директивный документ, собрание*
***Key words****: pedagogical propaganda, lecture, directive document, meeting*

Uzun illərin təcrübəsi onu göstərir ki, pedaqoji biliklərin valideynlər arasında yayılmasının fərdi söhbətlərdən başlamış iri ümumşəhər konfranslarınadək çox müxtəlif formaları mövcuddur. Məktəb tərəfindən toplanmış böyük təcrübə göstərir ki, pedaqoji təbliğat yalnız o yerdə müvəffəqiyyət qazanır ki, orada müəyyən, dəqiq sistem işlənib hazırlanmış olsun, təbliğat hərdənbir deyil, ardıcıl və məqsədəuyğun surətdə aparılsın.

Məktəb valideynlər arasında pedaqoji biliklərin yayılmasını müxtəlif yollarla (valideynlərin ümumməktəb yığıncaqları, valideynlər lektoriyası, universiteti, pedaqoji konfransları, sinif valideynlər yığıncağı, fərdi söhbətlər və s.) həyata keçirir, həm də bunu bir il deyil, mütəmadi olaraq uşaqların təhsil aldığı müddət ərzində yerinə yetirir. Lakin məktəb hər il valideynlərə eyni mövzuda, yeknəsəq məsləhətlər verərsə, valideynlər öz üzərində işləməklə pedaqoji biliklərini müntəzəm surətdə dərinləşdirməzsə, onda uşaqların tərbiyəsində məktəblə valideynlərin birgə işinin fəallığının artmasına ümid etmək olmaz. Hətta valideynlər məktəbin mühazirə və söhbətlərinə olan hər cür marağı itirərlər.

Heç kimə sirr deyil ki, məktəbin vəzifəsi valideynləri ardıcıl olaraq lazımi pedaqoji biliklərlə silahlandırmaqdan ibarətdir. Bu vəzifəni yerinə yetirmək üçün konkret şəraiti nəzərə alaraq, heç olmazsa valideynlərin pedaqoji təhsilinin məzmununu və həcmini müəyyən etmək, bunu uşaqların təhsil aldıqları illərə görə planlaşdırmaq, valideynlərə verilən biliyi getdikcə mürəkkəbləşdirmək lazımdır.

Pedaqoji təbliğatın vəziyyətinin öyrənilməsi onu göstərir ki, bəzi məktəblər valideynlər və əhali arasında pedaqoji bilikləri yaymağın müəyyən sistemini işləyib hazırlamışdır ki, bu sistemlərin də hərəsinin özünəməxsus fərqli cəhətləri mövcuddur.

Məsələn, mən valideynlər arasında pedaqoji təbliğat sistemini aşağıdakı iş forması kimi düşünürəm:

1. Sinif valideynlər iclası (rübdə bir dəfə)
2. Ailədə uşağın tərbiyəsi ilə bağlı sinif rəhbərlərinin mühazirə və söhbətləri (ildə 4-5 dəfə)
3. Ümumməktəb üzrə valideynlər iclasının keçirilməsi; (ildə 2-3 dəfə);
4. Məktəb və siniflər üzrə valideyn fəallarının məruzə və mühazirələrinin dinlənilməsi (ildə 4-5 dəfə);
5. Valideynlər arasında uşaqların təlim və tərbiyəsinə dair müəllimlərin valideynlərlə münasibəti baxımından açıq günün təşkili (9 həftədə bir dəfə);
6. Məktəb rəhbərlərinin pedaqoji təbliğatın təşkili məsələlərində valideyn komitəsinin üzvləri və təlimat müşavirlərinin iştirakı ilə söhbətlərin aparılması;
7. Evlər idarələrində valideynlər arasında iş (mühazirələr oxumaq, söhbətlər keçirmək, hökumətin məktəb haqqında direktiv sənədlərini valideynlərə izah etmək, kənd və rayon üzrə ümumi təhsil planının həyata keçirilməsi gedişini müzakirə etmək) və s.

Məktəb bu sistemə müvafiq olaraq pedaqoji təbliğat planını tərtib edir, onun həyata keçirilməsi müddətini, müəllimlərdən, valideynlərdən ictimaiyyət nümayəndələrindən planın yeri-

nə yetirilməsində kimin necə iştirak edəcəyini müəyyənləşdirir.

Tərtib olunan plan pedaqoji təbliğat sisteminin nəzərdə tutduğu bütün iş formalarını əhatə edir və ayrı-ayrı mühazirələrin, söhbətlərin, məruzələrin tematikasını konkretləşdirir. Bu tematika bir qayda olaraq uşaqlarda tərbiyə işi prosesində meydana çıxan məsələləri nəzərdə tutmaqla işlənib hazırlanır. Deməli, planın tematikası daima dəyişir, müasir həyatla bağlı məsələlər pedaqoji təbliğatı daha təsirli edir. Pedaqoji təbliğatın belə rəngarəng formalarından məktəb o zaman istifadə edə bilər ki, valideyn fəalları ilə müntəzəm surətdə iş aparır, valideynləri bu işin təşkilinə cəlb edə bilir.

Aydındır ki, sinif tədbirləri məktəb pedaqoji təbliğatında mühüm yer tutur. Bu mənada sinif rəhbəri (müəllim) öz sinfindən şagirdlərin valideynləri arasında pedaqoji təbliğatı yaymaq üçün səylə çalışmalıdır.

Müəllimin keçirdiyi tədbirlər ümumməktəb tədbirlərindən həm məzmunca, həm də formaca konkretliyinə görə fərqlənir. Valideynlər sinif rəhbərlərindən konkret göstəriş və məsləhətlər alırlar, bu göstəriş və məsləhətlər həmin ailəyə və şagirdə dərindən bələd olmağa imkan verir. Ümumməktəb valideyn yığıncaqlarında və mühazirələrində sual verməyə və çıxış etməyə utanan valideynlər sinif yığıncaqlarında həvəslə çıxış edir və fikir mübadiləsi aparırlar. Bundan başqa, ümumməktəb yığıncaqlarında bir şagird haqqında, yaxud sinifdə baş vermiş bu və ya başqa hadisə haqqında məsələ qaldırmağa dəyməz. Buna görə də sinif valideynləri arasında pedaqoji təbliğat daha təsirlidir və o, valideyn kollektivlərinin formalaşması prosesini sürətləndirir.

Sinif valideyn yığıncaqları müəyyən sinif pedaqoji kollektivi ilə valideynlər kollektivinin birgə işidir. Bu işin məqsəd və məzmunu uşaqların bütün həyatlarını pedaqoji cəhətdən düzgün təşkil etmək, yəni onları fiziki, mənəvi və əxlaqi cəhətdən sağlam şəxsiyyət tərbiyə etmək üçün hər iki kollektivin səylərini birləşdirməkdən ibarətdir.

Fərdi söhbət və məsləhətlər müəllimə hər bir ailənin xüsusiyyətini ətraflı öyrənməyi, ona daha effektli təsir etməyi, onun məktəblə sıx əlaqəsini yaratmağa imkan verir. Sinif rəhbərləri valideynlərlə fərdi söhbətləri və məsləhətləri adətən, ya məktəbdə, ya da şagirdlərin evlərində aparır.

Pedaqoji təbliğatın başqa formaları ilə müqayisədə valideynlərlə fərdi söhbətlər aparmaq daha təsirli vasitədir. Təbliğatın bu forması uşaqların tərbiyəsində məktəblə ailənin birliyinin yaranmasına kömək edir, valideynlərlə fərdi iş uşaqların evdə tərbiyəsini düzgün təşkil etməyə, onların fərdi xüsusiyyətlərini öyrənməyə imkan verir. Belə ki:

1. Pedaqoji tərbiyənin aşılanmasında müsbət nəticələr əldə olunması üçün məktəblə ailənin birgə işi düzgün təşkil edilməlidir;
2. Valideynlər arasında pedaqoji təbliğat prosesinin müsbət həllində müəllimin pedaqoji ustalığı və etikası vacib şərtdir;
3. Kiçik yaşlı məktəblilərin təhsilində uğurlu nəticələrə nail olmaq üçün valideynlər arasında pedaqoji təbliğat sistemli və müntəzəm aparılmalıdır;
4. Valideynlər arasında pedaqoji biliklərin yayılmasında yeni cəmiyyətin tələbləri nəzərə alınmalıdır;
5. Təlimdə geri qalan və tərbiyəsində ciddi qüsurlar olan şagirdlərin valideynlərinin pedaqoji cəhətdən maariflәndirilməsində qabaqcıl nümunələrdən istifadə edilməsi müsbət səmərə verir;
6. Valideynlər arasında pedaqoji təbliğatın yayılmasında tanınmış klassiklərin tərbiyəvi xarakter daşıyan kəlamlarından və müasir pedaqoqların maraqlı fikirlərindən düzgün istifadə olunmasına səy göstərilməlidir;
7. Məktəblilərin təlim - tərbiyə prosesinin düzgün və zamanın tələblərinə müvafiq həllində valideynlərin dövlət və ictimaiyyət qarşısında məsuliyyət daşıdıqları onlara dövlət tərəfindən dərk etdirilməlidir.

**Problemin aktuallığı.** Pedaqoji biliklərin valideynlər arasında yayılmasını təmin etmək mövzunun aktuallığını təşkil edir.

**Elmi yeniliyi.** Məktəblə ailənin əlbir işi prosesində pedaqoji baxımdan şagirdlərin düzgün tərbiyəsi ön plana çəkilir.

**Problemin praktik əhəmiyyəti.** Məktəb müəllimləri və valideynlər bu məqalədə irəli sürülən maraqlı məqamlardan faydalana biləcəklər.

## ƏDƏBİYYAT

1. Kazımov N.M., Həşimov Ə.Ş. Pedaqogika. Bakı, 1996.
2. Qasımova L., Mahmudova R. Pedaqogika. Bakı, 2003.
3. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007.
4. Abbasov A.N. Pedaqogika. Bakı, 2013.
5. Paşayeva A., Rüstəmov F. Pedaqogika. Yeni kurs. Bakı**:** Nurlan, 2007.
6. Selevko Q. K. Müasir təhsil texnologiyaları. M.,, 1998.
7. Ümumtəhsil fənlərinin tədrisi məsələləri. Bakı, 2016.

**Ш. Алекперова**

## ЭФФЕКТИВНЫЕ СПОСОБЫ РАСПРОСТРАНЕНИЯ ПЕДАГОГИЧЕСКИХ ЗНАНИЙ СРЕДИ РОДИТЕЛЕЙ

***РЕЗЮМЕ***

Статья посвящена актуальной теме. Во все времена возникала необходимость распространения педагогических знаний среди родителей. Независимо от специальности, педагогические знания должны углубляться и формироваться для будущего наших детей. В этой статье мы попытались выполнить эти требования**.**

**Sh. Alekperova**

## EFFECTIVE WAYS OF SPREADING PEDAGOGICAL KNOWLEDGE AMONG PARENTS

***SUMMARY***

The article is devoted to the actual topic. At all times there has been a need to spread of pedagogical knowledge among parents. Because regardless of specialty, pedagogical knowledge should be deepened and shaped for the future of our children. In this article, we have tried to meet these requirements.

**Redaksiyaya daxil olub:** 06.02.2018